Yeni Azərbaycan.- 2019.- 11 dekabr.- S. 11.

# Azərbaycan dövləti uşaq və gənclərin hərtərəfli inkişafı istiqamətində mühüm addımlar atır

*Ölkəmizdə uşaqların, həmçinin gənclərin fiziki və mənəvi sağlamlığı hər zaman diqqət mərkəzində saxlanılır*



Demokratiya yolunda inamla addımlayan, dinamik inkişafa və əsaslı ictimai-siyasi sabitliyə malik olan, beynəlxalq miqyasda etibarlı tərəfdaş kimi tanınan Azərbaycanda eyni zamanda uğurlu uşaq və gənclər siyasəti də həyata keçirilir. Ölkəmizdə ənənəvi olaraq cəmiyyətin gələcəyi olan uşaqların və gənclərin fiziki və mənəvi inkişafına, həmçinin sağlamlığına, təhsilinə və yaşayış şəraitinə xüsusi əhəmiyyət verilir. Belə ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də uğurla davam etdirilən sosial siyasətin tərkib hissəsi olan uşaq hüquqlarının qorunması daim dövlət başçısının diqqət mərkəzindədir. Prezident İlham Əliyev respublikamızda uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə mütəmadi olaraq Dövlət proqramlarının həyata keçirilməsi istiqamətində sərəncamlar imzalayır, tədbirlər görür. Azərbaycan 20 noyabr 1989-cu ildə BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş "Uşaq hüquqları haqqında" uşaqlarla bağlı əsas beynəlxalq konvensiyanın üzvüdür. Ölkəmizdə uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Konstitusiya, qanunverici və normativ-hüquqi aktlarla tənzimlənir. Bu sahədə əsas normativ sənəd 1998-ci il mayın 19-da qəbul edilmiş "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunudur. Qeyd etmək lazımdır ki, ölkəmizdə uşaq hüquqlarının müdafiəsi təkcə müvafiq qanunvericilik aktlarının qəbul edilməsi ilə yekunlaşmayıb, konkret tədbirlərin həyata keçirilməsi yolu ilə reallaşmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 22 dekabr tarixli Sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi də Azərbaycan dövlətinin uşaqlara sonsuz qayğısının bariz təzahürü sayılmalıdır. Elə həmin il - "Uşaq ili" çərçivəsində 17-18 dekabr tarixlərində ilk dəfə Azərbaycan Uşaqlarının I Ümumrespublika Forumu keçirilib. Vurğulayaq ki, indiyə qədər 4 forum keçirilib və ümumiyyətlə, uşaqlarla bağlı keçirilən bu forumlar ölkəmizdə dövlət uşaq siyasətinin daha yüksək səviyyədə inkişaf etdirilməsində xüsusi rol oynayıb. Hazırda ölkəmizdə iki milyon altı yüz minə yaxın uşaq var və onların hüquqlarının qorunması, fiziki və mənəvi sağlamlığı istiqamətində davamlı addımlar atılır. Dövlət tərəfindən həmçinin mütəmadi olaraq qaçqın və məcburi köçkün uşaqlar üçün xidmətlərin təminatına, böyüməkdə olan nəslin sağlamlığına, təhsilinin inkişafına, hüquqlarının müdafiəsinə, uşaq iştirakçılığına yönəlmiş tədbirlər həyata keçirilir. Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın uşaq məsələlərinə diqqəti bu sahəyə qayğının daha da artırılmasına səbəb olmuşdur. Xüsusilə də "Uşaqlar Azərbaycanın sabahıdır, gəlin onların problemlərinə biganə qalmayaq" devizini irəli sürən Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu uşaqların hərtərəfli inkişafı, keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması istiqamətində önəmli layihələr həyata keçirir. Məsələn, "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində yüzlərlə təhsil ocağı tikilib istifadəyə verilmişdir. Eyni zamanda, "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması" layihəsi çərçivəsində 100-dək körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunmuşdur. Kimsəsiz, yetim, fiziki sağlamlığında problemi olan uşaqların sosial-psixoloji reabilitasiyası üçün resurs mərkəzinin yaradılması, bu uşaqların məşğulluğunun təmin edilməsi, eləcə də müxtəlif peşələrin öyrədilməsi, "Təhsilə dəstək" və "İnklüziv təhsil" proqramlarının həyata keçirilməsi Fondun xidmətləri sırasında xüsusi vurğulanmalıdır.

Bu məqamda xüsusi olaraq qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı Azərbaycan gəncliyinin də uğurlu inkişafında yeni bir səhifə açdı. 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması bu istiqamətdə görüləcək tədbirlərin başlanğıcı idi. 1996, 1999 və 2003-cü illərdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan gənclərinin forumlarının keçirilməsi bu istiqamətdə mühüm dönüş yaratdı. 1997-ci il fevralın 1-də Ümummilli Lider Heydər Əliyev "2 fevral - Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında" Sərəncam imzaladı. Bu Sərəncama uyğun olaraq hər il fevralın 2-si ölkəmizdə Gənclər Günü kimi qeyd olunur. 1999-cu ilin iyulunda ölkə başçısı tərəfindən imzalanan "Dövlət gənclər siyasəti haqqında" Fərmana uyğun olaraq təsdiqlənmiş tədbirlər planında gənclər siyasətinin bütün istiqamətləri öz əksini tapdı. 2002-2003-cü illərdə qəbul olunan "Gənc istedadlar üçün xüsusi təqaüd təyin edilməsi haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Dövlət gənclər siyasəti haqqında" sənədlərin gənclərin həyatında xüsusi rolu oldu. Eyni zamanda, istedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və digər problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən, həmçinin uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması məqsədilə müvafiq Dövlət proqramları hazırlandı. Gənclər və İdman Nazirliyinin nəzdində yaradılan Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi və respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzi ümumi işə öz töhfələrini verdi. Gənclərin hərtərəfli inkişafını təmin etmək, onların problemlərinin həlli, hüquqlarının müdafiəsi sahəsində daha ciddi tədbirlər görmək, həyata keçiriləcək gənclər siyasətini tənzimləmək məqsədilə hazırlanmış "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu 2002-ci il tarixli Fərmanla qüvvəyə mindi.

Hazırda isə Ulu Öndər Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən inamla və ardıcıllıqla həyata keçirilir. Prezident İlham Əliyevin 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" Sərəncamdan irəli gələrək gənclərin inkişafı istiqamətində çoxsaylı tədbirlər həyata keçirilib və mühüm nəticələr əldə olunub. Bununla yanaşı, dövlətimizin başçısının Sərəncamı ilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nın qəbul edilməsi müasir Azərbaycan gəncliyinin dövrün tələbləri səviyyəsində hərtərəfli inkişafına möhkəm zəmin yaradıb. Həmçinin 2012-ci ildə Prezident İlham Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da gənclərin potensialının yüksəldilməsi ayrıca nəzərdə tutulub. Gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncamın imzalanması da müstəsna əhəmiyyət kəsb edir. Gənclər siyasəti çərçivəsində Gənclər Fondunun yaradılması, gənclərin və gənclər təşkilatlarının bacarıq, təşəbbüs və yaradıcılıqlarının üzə çıxarılması, onların hökumət tərəfindən dəstəklənməsi, gənclər üçün Prezident Mükafatının təsis olunması, ölkə gənclərinin beynəlxalq arenada təmsilçiliyinin yüksəlməsi, respublikanın əksər rayon və şəhərlərində gənclərin istifadəsinə verilən gənclər mərkəzlərinin və gənclər evlərinin tikilməsi səmərəli nəticələrin əldə olunmasını şərtləndirib.

Heç şübhəsiz, Azərbaycanda gənclərə dövlət qayğısının ən önəmli nümunələrindən biri də ölkəmizdə qeyri-hökumət təşkilatları sektorunda yer alan gənclər təşkilatları vasitəsilə həyata keçirilən fəaliyyətdir ki, bu sahədə də aktivlik müşahidə olunur. Öz növbəsində, göstərilən diqqət və qayğıdan güc alan Azərbaycan gənclər təşkilatları bu gün yalnız yerli və məhdud səviyyədə deyil, regional və beynəlxalq arenada mühüm layihələr həyata keçirir, ölkəmizin gənclər siyasətini layiqincə təbliğ edirlər.

Təbii ki, gənclərimiz də onlara yaradılan bu münbit şəraitdən yararlanmaqla yanaşı, daha dərin biliklərə yiyələnməli, milli mənəvi dəyərləri qorumalıdırlar. Yeri gəlmişkən, dekabrın 5-də Şamaxıda "ASAN Həyat" kompleksinin açılışındakı çıxışında bu məqama toxunan Prezident İlham Əliyev bildirib ki, bizim gənclərimiz xalqımızın əsrlərboyu yaratdığı dəyərləri gələcəkdə qorumalıdırlar, necə ki, biz qoruyuruq. Məhz o təqdirdə biz öz milli mənliyimizi, ləyaqətimizi saxlaya bilərik, qoruya bilərik. **"Bilikli, savadlı, Vətənə bağlı müasir gənclik Azərbaycanın dayanıqlı uğurunun təminatçısıdır. Gənclər biliklərlə yanaşı, Vətənə bağlı olmalıdırlar, Vətəni və dövlət maraqlarını hər şeydən üstün tutmalıdırlar",** - deyə dövlətimizin başçısı vurğulayıb.

Beləliklə, sonda bir daha vurğulayaq ki, Azərbaycan dövləti gəncliyin inkişafına, həmçinin fiziki və mənəvi sağlamlığına xüsusi diqqət yetirir. Ölkəmizdə gənclərimizin öz imkan və bacarıqlarını nümayiş etdirmələri üçün hər cür şərait yaradılıb.

**Pərviz SADAYOĞLU**

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün**